## *Rəylər*

# ƏDƏBİ MƏTNƏ YANAŞMANIN NÜMUNƏSİ




AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Kamran Əliyev iyirmi ilə yaxındır ki, bütün türk dünyasının monumental ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi ilə məşğuldur. Onun bu mövzu ilə bağlı apardığı tədqiqatların ümumi nəticələri 2015-ci ildə işıq üzü görən "Açıq kitab – Dədə Qorqud" monoqrafiyasında cəmləşmişdir. Müəllif bu tədqiqatda bir çox məsələlərə yeni elmi mövqedən yanaşaraq maraqlı nəticələr ortaya qoymuşdur. Sözügedən kitab 2016-cı ildə Ərdəbil şəhərində "Savalan igidləri" mətbəəsində fars dilində, 2018-ci ildə isə İstanbulun "Ötükən" nəşriyyatında türk dilində çap edilmişdir. Türkcə nəşr olunan kitaba Türkiyənin dünya şöhrətli alimi prof., dr. Əhməd Bican Ərcilasun ön söz yazmışdır.

Prof. Dr. Ə.B.Ərcilasun Kamran Əliyevin tədqiqatının yeniliklərini Kamal Abdullanın araşdırmaları ilə müqayisədə təqdim edir: "Azərbaycanın tanınmış mədəniyyət xadimlərindən, ədəbiyyatşünas Kamal Abdulla *"Gizli Dədə Qorqud"* kitabı ilə ilk dəfə mətnin içinə girmiş, mətnin içində dolaşan iti gözlü bir səyyah kimi gördüklərini, kəşf etdiklərini və hətta bəlkə də görmədiklərini bizə çatdırmağa çalışmışdır. *"Gizli Dədə Qorqud"*dan sonra indi də *"Açıq Kitab: Dədə Qorqud"* gəldi qarşımıza. Kamran Əliyev də mətnlərin içinə girmişdir. Amma o "gizli bir tərəfi yox, hər şeyi açıq" deyir. Əlaqələr qurur. Hadisələr arasında, insanlar arasında, ifadələr arasında. Demək istəyir ki, bu əlaqələri qursanız hər şey üzə çıxar. Niyə o qədər qəhrəman Təpəgözün öhdəsindən gələ bilmir, ancaq Basat gələ bilir? Çünki Təpəgözün mifik bir tərəfi də var, o bir pəridən doğulmuşdur. Onunla döyüşən qəhrəmanlardan da yalnız Basatın mifik tərəfi vardır, onu aslan böyütmüşdür".

Ərəb şeirinin – əruz vəzninin yaranması elm tarixində dəvənin yerişi ilə əsaslandırılır. Türk şeirinin, xüsusilə heca vəznli şeirin formalaşmasının mənbələri indiyə qədər elm aləminə qaranlıq qalmışdır. Prof. Kamran Əliyev türk şeirinin doğuluşunu və təkamülünü "Dədə Qorqud Kitabı"nda axtarmış və tapmışdır: "Məni ən çox həyəcanlandıran məsələlərdən biri, bəlkə də birincisi budur. Misradan beytə, beytdən bəndə, oradan poeziyaya keçid. Yenə də addım-

addım izləyir Əliyev və bizi şeirin seyrangahına çıxarır. Həm də bəzən yorğa yerişli, bəzən dörd nala qaçan ağ boz atların belində. İndi türk şeirinin qanadları ilə daha şüurlu olaraq uça bilərik. Bu eyni zamanda Türk etnosunun poetikasıdır. Bəzi ədəbiyyatşünasların, bəzi şairlərin poetikası olduğu kimi, etnosların da poetikası olmalıdır və məhz türk etnosunun poetikası, "Kitabi-Dədə Qorqud"un sətirləri (misralarımı desəm?) arasındadır. Kamran Əliyev o sətirlərdə gəzmiş (yoxsa at çapmışmı desəm?) və etnosumuzun poetik icadını, poetik anlayışını ortaya qoymuşdur" (prof. Ə.B.Ərcilasun).

Kamran Əliyevin kitabında Qorqudşünaslıqda indiyə qədər mübahisəli olan bir çox məsələlərə aydınlıq gətirilir. Bu məsələlərdən biri "Dəli Domrul" boyu ilə bağlıdır. Tədqiqatçılar indiyə qədər bu boyun dastanın strukturu ilə bağlı olmamasından bəhs etmişlər. Ön sözün müəllifi bu məsələ ətrafında öz fikirlərini ümumiləşdirərək vurğulayır ki, Dəli Domrulun tənhalıqdan xilas olmasını, Aruz Qocanın mənfi bir şəxsiyyətə bürünüşünü, Əliyevin araşdırmasından sanki addım-addım təqib edə bilirsiniz. Niyə digər Oğuz qəhrəmanlarında hər şey üç və ya üç yüzdür, Aruz niyə, altmışdır. Rəqəmlərin bir-biri ilə və şəxslərlə münasibətlərini izləsəniz Əliyev kimi, bu sualın da cavabını tapa bilərsiniz.

Kamran Əliyevin monoqrafiyası ədəbi əsərə yanaşmanın da yeni formasını yaratmışdır. Bu da prof. Ə.B.Ərcilasunun diqqətindən yayınmayıb: "Kamran Əliyevin bu əsəri təkcə Qorqudşünasların deyil, "Dədə Qorqud" üzərində çox da dayanmamış ədəbiyyatşünasların da marağına səbəb olmalıdır. Çünki bu əsər, bir ədəbi mətnə necə yanaşılması, bir ədəbi mətnin içinə necə girilməsi barədə də bizə yaxşı bir nümunə təşkil edir".

***Gülnar Osmanova***
*filologiya üzrə fəlsəfə doktoru*